**Azərbaycan 44 gün ərzində öz əzəli torpaqlarını "dəmir yumruq" hesabına azad etdi. 30 ildən bəri, işğal altında qalmış və tamamilə dağıdılmış yurd yerlərimizdə suverenliyimiz təmin olundu və müstəqilliyimizin rəmzi olan müqəddəs üçrəngli bayrağımız Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və şanlı Ordumuzun gücü sayəsində Qarabağımızın müxtəlif guşələrində dalğalandı. Ağdamda, Xocavənddə, Füzulidə, Cəbrayıl və Qubadlıda, Kəlbəcərdə, mədəniyyətimizin beşiyi olan Şuşada bayrağımızın dalğalandığını görmək, hesab edirəm ki, hər bir vətənsevər azərbaycanlı üçün qürurverici görüntülərdir.**



# Qarabağ cənnətə çevriləcək

Neçə illərdir ki, Azərbaycan dövləti beynəlxalq tribunalarda daim Ermənistanın işğalçılıq siyasətini tənqid etmiş, onun ərazilərimizdə törətdiyi vəhşilikləri faktlarla dünyaya çatdırmışdır. Ümumiyyətlə, Qarabağ həqiqətlərinin beynəlxalq aləmə çatdırılması ilə bağlı bir çox önəmli addımlar atılmış, işlər görülmüşdür. Bunun nəticəsidir ki, dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bir çox beynəlxalq qurumlar Ermənistanın işğalçılıq siyasətini pisləyən bəyanatlar, qətnamələr qəbul ediblər. 44 günlük Vətən müharibəsində həmin qurumlar bir daha işğalçının vandallıq aktlarını görməklə, Azərbaycanın bu işğaldan əziyyət çəkdiyinə və öz ərazi bütövlüyünü istənilən yolla bərpa etmək hüququnun olmasına əyani şahid oldular.

Prezident İlham Əliyevin azad edilmiş ərazilərə səfərləri və oradakı vəziyyətlə tanışlığı istər yerli, istərsə də beynəlxalq mətbuatın diqqətində oldu. Bu da təbiidir. Çünki 30 illik işğaldan sonra Prezident İlham Əliyev Azərbaycan dövlətinin birinci şəxsi olaraq, Cəbrayıl, Füzuli, Qubadlı və Laçın rayonlarına səfər etməklə, həmin ərazilərdəki vəziyyətlə yaxından tanış oldu, bu və digər ərazilərdə həyatın bərpa edilməsi və infrastrukturun yenidən qurulması üçün tapşırıq və tövsiyələrini verdi.

Prezident İlham Əliyevin Birinci vitse-prezident Mehriban xanım Əliyeva və qızları Leyla Əliyeva ilə birgə Qarabağa səfərlərinin hər biri maraqlı məqamlarla yadda qaldı. Lakin onların mədəniyyət beşiyimiz olan Şuşaya tarixi səfəri hər mənada özəlliyi və əlamətdarlığı ilə seçilirdi. Bu səfər zamanı Prezidentin Şuşanın bərpası və yenidən qurulması, onun tarixi şəhər kimi mühafizəsi ilə bağlı səsləndirdiyi fikirlər mədəniyyətimizin qorunması və gələcək nəslə çatdırılması baxımından olduqca önəmlidir.

İstər azərbaycanlı, istərsə də xarici jurnalistlər cənab Prezident İlham Əliyevin Şuşa səfərinə xüsusi diqqət göstərdilər. Qürurverici haldır ki, Şuşa səfəri qardaş Türkiyə mətbuatında da geniş işıqlandırıldı.

Ali Baş Komandanımızın 39 il sonra təqvimin eyni günündə tarixi şəhərimiz olan Şuşaya səfəri çərçivəsində tarixi fotoları nümayiş etdirməsi, eləcə də görkəmli mədəniyyət və incəsənət xadimlərinin--dahi Üzeyir Hacıbəylinin, Natəvanın və Bülbülün büstlərinin doğma şəhərlərinə qaytarılması xalqımız üçün olduqca duyğulu və diqqətçəkən məqamlardan idi. Bu, bir daha onu göstərdi ki, Azərbaycan xalqı və dövləti milli-mənəvi dəyərlərinə, mədəni irsinə və tarixinə daim sadiqdir və onun adını dünyaya tanıtmış şəxsiyyətlərinə böyük ehtiramla yanaşır.

Qələbədən sonra artıq Şuşa başda olmaqla, ümumilikdə, Qarabağımızın bərpası, kənd və şəhərlərimizin yenidən qurulması işinə başlanılıb. İndi bütün diqqət və səylər Qarabağın abad və xoş gələcəyi üçün görülən işlərə yönəlib. Müasir standartlara cavab verən yol-nəqliyyat infrastrukturunun yaradılması, bölgənin inkişafında xüsusi əhəmiyyətə malik olacaq Füzuli Beynəlxalq Hava Limanının əsasının qoyulması, "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin tətbiqi və s. bütün bunlar orada yaşayacaq vətəndaşlarımızın rifahının daha yaxşı səviyyədə təşkili üçün nəzərdə tutulub.

Qarabağın bərpası və yenidənqurma işləri həmin bölgənin inkişafına xidmət etməklə yanaşı, gələcəkdə turizmin inkişafına da öz müsbət təsirini göstərəcək.

Nəzərə alsaq ki, Azərbaycan daim turizm potensialına görə xarici qonaqların diqqətində olub, Qarabağın bərpasından və orada həyatın normal axara düşməsindən sonra yüzlərlə, minlərlə yerli və xarici turistin bölgəyə üz tutacağı şübhəsizdir.

Çünki Qarabağın relyefi, təbii gözəllikləri və tarixi abidələrinin zənginliyi onu turizm üçün əlverişli və cəlbedici edən cəhətlərdəndir. Azad edilmiş ərazilərdə hərtərəfli infrastruktun bərpasından sonra bu cəlbedicilik daha da artacaq.

Prezident İlham Əliyevin "Qarabağı cənnətə çevirəcəyik" ifadəsi tezliklə böyük layihə və işlər sayəsində, həqiqətən də, Qarabağımızın gözəlliyinə gözəllik qatacaq.

***Şəmsiyyə KƏRİMOVA,***
***Əməkdar jurnalist***

Xalq qəzeti 2021.- 10 mart.- S.10.